QANUN № 02 (376), 2026, s. 137-142

**Hacıyeva Gülsüm Namiq qızı,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının
II kurs magistrantı, "Yeni Klinika" publik hüquqi şəxsi
Ünvan: Bakı şəhəri, Nizami rayonu, H.Əliyev pr., 142
E-mail: hcyvagllsm@gmail.com

**UOT 342.92**
**DOI: https://doi.org/10.30546/2218-9130.043.2026.569**

# İNZİBATİ MƏHKƏMƏ İCRAATINDA "AĞLABATAN MÜDDƏT" ANLAYIŞI: AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN PRESEDENTLƏRİNİN TƏHLİLİ

***Açar sözlər:*** *ağlabatan müddət, inzibati məhkəmə icraatı, inzibati icraat, AİHM presedentləri, ədalət mühakiməsi.*

***Ключевые слова:*** *разумный срок, административное судопроизводство, административное производство, прецеденты ЕСПЧ, правосудие.*

***Keywords:*** *reasonable time, administrative judicial proceedings, administrative procedure, ECtHR case-law, administration of justice.*

"Ağlabatan müddət" prinsipi ədalətli məhkəmə hüququnun əsas təminatlarından biridir: fərdləri əsassız gecikmələrdən qoruyur, hüquqların vaxtında və effektiv reallaşmasını təmin edir. Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) presedentləri konkret müddət müəyyən etmir, işin mürəkkəbliyi, ərizəçinin davranışı, dövlət orqanlarının hərəkətləri və fərd üçün risklər kimi meyarlar əsasında hər halı ayrıca qiymətləndirir. Bu yanaşma Azərbaycan Konstitusiyasının 60-cı maddəsi ilə tam uyğundur, lakin uzun icraatlar, iş yükünün artması və koordinasiya problemləri hüquqların real müdafiəsini çətinləşdirir.

Elmi ədəbiyyat prinsipin qiymətləndirici xarakterini vurğulayır, ağlabatan müddət formal limitdən çox, proses iştirakçılarının maraqlarına və ədalətin effektivliyinə cavab verən hüquqi təminatdır. Gecikmələr sübutların keyfiyyətini pisləşdirir, müdafiə imkanlarını zəiflədir və ədalətə inamı sarsıdır.

Azərbaycanda prinsipin gücləndirilməsi üçün məhkəmə yükünün optimallaşdırılması və qabaqlayıcı mexanizmlərin (Avstriya, İtaliya təcrübəsi kimi) tətbiqi vacibdir. İlk növbədə, məhkəmələrin iş yükünün balanslaşdırılması və hakimlər arasında işlərin daha səmərəli bölgüsünün təmin edilməsi vacibdir. Elektron məhkəmə sistemlərinin geniş tətbiqi, sadələşdirilmiş icraat prosedurlarının inkişaf etdirilməsi və proseslərin rəqəmsallaşdırılması məhkəmə baxışının sürətləndirilməsinə xidmət edə bilər. Hakimin prosesə rəhbərlik funksiyasının gücləndirilməsi, əsassız təxirəsalmaların qarşısının alınması, tərəflər üçün sübutların təqdim edilməsinə dair

konkret vaxt çərçivələrinin müəyyən edilməsi icraatın səmərəliliyini artıran vasitələr kimi çıxış edir. Eyni zamanda, məhkəmə icraatının həddindən artıq uzanması hallarında effektiv daxili hüquqi müdafiə vasitələrinin yaradılması məqsədəuyğundur. Bu baxımdan, icraatın ləngiməsindən şikayət vermək imkanının təmin edilməsi və həddindən artıq uzun müddət davam edən proseslərə görə kompensasiya mexanizmlərinin tətbiqi hüquqların real müdafiəsinə xidmət edə bilər. AİHM presedent hüququna əsasən dövlətin öhdəliyi yalnız məhkəmələrin formal fəaliyyətini təmin etməkdən ibarət deyil, həm də məhkəmə sistemini elə təşkil etməkdir ki, işlər əsassız gecikmələrə yol verilmədən baxılsın. Dövlət məhkəmələrin yetərli institusional imkanlarla təmin olunmasına, icraat müddətlərinə effektiv nəzarətin həyata keçirilməsinə və prosessual maneələrin aradan qaldırılmasına cavabdehdir. Bu yanaşma həm fərdlərin hüquqlarının effektiv müdafiəsini, həm də məhkəmə hakimiyyətinə ictimai etimadın qorunmasını təmin edir və inzibati məhkəmə icraatının ədalətli və vaxtında aparılmasının əsas şərti kimi çıxış edir.

"Ağlabatan müddət" hüquq sistemlərinin ən vacib prinsiplərindən biridir. Bu anlayış fərdləri əsassız və uzun müddət davam edən prosedurlardan qoruyur, ədalətə inamı saxlayır. Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsinin II hissəsində açıq şəkildə qeyd olunur: "Hər kəsin hüququ vardır ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın" [1].

Avropa İnsan Hüquqları Konvensiyasının (AİHK) 6-cı maddəsi də eyni prinsipi təsbit edir: hər kəs mülki hüquq və vəzifələrinə dair mübahisələrdə, yaxud cinayət ittihamlarında işinin müstəqil və qərəzsiz məhkəmə tərəfindən açıq iclasda və ağlabatan müddətdə araşdırılmasını tələb etmək hüququna malikdir. AİHM bu hüququ şərh edərkən konkret müddət təyin etmir, hər işin xüsusiyyətlərini ayrıca qiymətləndirir.

Məqalədə inzibati məhkəmə icraatında "ağlabatan müddət" anlayışının mahiyyətini, AİHM-in yanaşmasını, qiymətləndirmə meyarlarını və Azərbaycan hüquq sistemindəki tətbiqini təhlil edəcəyik.

**"Ağlabatan müddət" anlayışının mahiyyəti və məqsədi**

"Ədalətin gecikməsi ədalətin rədd edilməsi deməkdir" – bu köhnə hüquqi aforizm AİHM-in presedent hüququnda dəfələrlə təsdiq olunub. Məhkəmə vurğulayır ki, ədalət mühakiməsinin effektivliyi və etibarlılığı əsassız gecikmələrdən ciddi şəkildə zərər görür.

Ədalətli məhkəmə araşdırması anlayışı Konvensiyada ümumi ifadə olunsa da, onun fəlsəfəsi vaxtında, effektiv və qüsursuz prosesi nəzərdə tutur. Bu, yalnız formal prosedurların yerinə yetirilməsi deyil, həqiqətin obyektiv axtarışı və əsaslı qərarın verilməsi deməkdir. Uzun müddət davam edən qeyri-müəyyənlik vəziyyəti qanunun aliliyinə ziddir və əslində ədalətin inkarı hesab oluna bilər. İnzibati mübahisələrdə bu prinsip xüsusilə vacibdir, çünki inzibati aktlar fərdin gündəlik həyatına (məsələn, pensiya, vergi, lisenziya, sosial yardım və s.) birbaşa təsir edir və gecikmə hüquqların real müdafiəsini mümkünsüz edə bilər.

Ağlabatan müddət tələbi ədalətli məhkəmə hüququnun ayrılmaz hissəsidir və digər elementlərlə – məhkəməyə müraciət hüququ, dinlənilmək hüququ, arqumentləri təqdim etmək və etiraz etmək imkanı – sıx bağlıdır. Bu hüquqlar yalnız vaxtında qərar çıxarılmadıqda mənasını itirir. Çünki mübahisənin həlli, hüquqların bərpası və ya inzibati aktın ləğvi yalnız məhkəmə qərarı ilə mümkündür. Sübutların keyfiyyətinin pisləşməsi – şahidlərin yaddaşının zəifləməsi, sənədlərin itməsi, ekspert rəylərinin aktuallığını itirməsi – gecikmənin ən ağır nəticələrindəndir. Məsələn, Kyriazis Yunanıstana qarşı işdə (2009) qəza hadisəsindən 4 il sonra prosesdə sübutların (avtomobil silənlərinin) yoxlanılması imkanı iti-

rilmişdi və bu, ədalətli araşdırmanı qeyri-mümkün etmişdi.

AİHM presedent hüququnda "ağlabatan müddət" sosial baxımdan qəbul edilə bilən davranış həddini ifadə edir. Bu prinsip ədalət mühakiməsinə inamı qorumaq, tərəfləri uzunmüddətli gecikmələrdən müdafiə etmək məqsədi daşıyır. Məhkəmə vahid, mütləq müddət müəyyən etmir, çünki hər iş fərqlidir. Məsələn, qan köçürülməsi nəticəsində AİDS-ə yoluxmuş şəxsin işində 21 ayın belə ağlabatan müddəti aşdığı qənaətinə gəlinmişdi – xəstənin sağlamlıq vəziyyəti nəzərə alınmışdı. Digər hallarda isə daha uzun müddətlər məqbul sayılır [3, s. 21-25].

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi də 4 oktyabr 2012-ci il qərarında AİHM meyarlarına istinad edərək vurğulayıb ki, müddətin ağlabatanlığı aşağıdakı amillərlə qiymətləndirilir:

- işin mürəkkəblik dərəcəsi;
- iddiaçının (ərizəçinin) prosessual davranışı;
- məhkəmələrin və dövlət orqanlarının hərəkətləri;
- işin ərizəçi üçün əhəmiyyəti və doğurduğu risklər;

Məhkəmə aidiyyəti mübahisələri və ya səlahiyyət qeyri-dəqiqliyi dövlətin məsuliyyətinə aid edilir (Zimmermann və Steiner İsveçrəyə qarşı iş, 1983).

Elmi ədəbiyyatda "ağlabatan müddət" anlayışının tərifi ilə bağlı fikir ayrılıqları mövcuddur. Bu fərqlilik, prinsipin qiymətləndirici xarakterindən irəli gəlir. Bəzi müəlliflər ağlabatan müddəti xüsusi prosessual müddət növü kimi qiymətləndirirlər. Məsələn, Aşirbekova M.T. və Kudin F.M. hesab edirlər ki, ağlabatan müddət "qanunla müəyyən edilmiş müddətlər daxilində, bütün mərhələlərdə prosessual hərəkətlərin yerinə yetirilməsi və qərarların qəbulu üçün nəzərdə tutulmuş xüsusi müddət növüdür [5, c. 21-25]. Bu müddət proses iştirakçılarının maraqlarına cavab verir, lakin qanunda rəsmi olaraq müəyyən edilmiş müddətləri aşmır". Onların fikrincə, belə müddət proses tərəflərini yüksək keyfiyyətli və vaxtında fəaliyyət göstərməyə təşviq edir. Bu baxış Musayeva A.G., Saltykov K.G. və İşçenko O.A. tərəfindən də dəstəklənir. Sonuncular qeyd edirlər ki, ağlabatan müddət qanunla müəyyən edilmiş müddətlər çərçivəsində xüsusi müddət növü olmaqla hüquqi münasibətlərin iştirakçılarının maraqlarına uyğundur, lakin rəsmi müddətləri keçmir.

Beləliklə, bu yanaşmadan çıxan əsas nəticə odur ki, ağlabatan müddətin fərqləndirici xüsusiyyəti onun proses iştirakçılarının maraqlarına uyğun olmasıdır. Yəni, ağlabatan müddət yalnız formal bir müddət deyil, həm də ədalətli və effektiv icraatı təmin edən hüquqi təminat kimi qiymətləndirilir.

Digər müəlliflər ağlabatan müddəti "optimal", "kifayət qədər" və ya "zəruri" müddət kimi xarakterizə edirlər. Dikarev İ.S. və Qordeev P.S. yazırlar ki, bu müddət "prosessual qərarın qəbulu, hərəkətin icrası və ya prosesin mərhələsinin başa çatması üçün optimaldır və cinayət (və ya inzibati) işinin məqsədinin həyata keçirilməsini təmin edir". Lakin bu təriflərdə istifadə olunan qiymətləndirmə ifadələri – "optimal", "kafi", "zəruri" – anlayışın dəqiq mahiyyətini müəyyən etməyə imkan vermir və subyektiv şərhə yol açır [6, s. 116].

Eyni zamanda, elmi ədəbiyyatda ağlabatan müddət və rəsmi prosessual müddətlərin iki fərqli kateqoriya olduğu vurğulanır. Ağlabatan müddət təbii hüquq doktrinasının bir kateqoriyası kimi qəbul edilir, formal prosessual müddətlər isə pozitiv qanunvericiliyin məhsuludur. Bəzi müəlliflər hüquq-mühafizə və məhkəmə orqanlarının əməkdaşlarına müddətin ağlabatanlığını qiymətləndirmək üçün meyarlar təklif edirlər. Malofeev İ.V.-yə görə, "ağlabatan müddət konkret işin hallarına uyğun olan müddətdir" [7, s. 46]. Polyakova İ.N. isə daha geniş bir tərif verir: "Məhkəmə prosesi üçün ağlabatan müddət pro-

sessual qanunun hərfinə və mənasına zidd olmayan, məntiqi cəhətdən əsaslandırılmış müddətdir; bu müddət ərzində məhkəmə işə mahiyyəti üzrə baxmalı, səlahiyyətli orqanlar isə qərarın icrasını təmin etməlidir” [8, s. 33-37].

Alimlərin baxış bucağı xüsusilə diqqətəlayiqdir, ağlabatan müddət yalnız qanuni limitləri deyil, həm də işin xüsusiyyətlərini, tərəflərin maraqlarını və ədalətin effektivliyini əhatə edir. Bu yanaşma AİHM-in konkret hallara əsaslanan qiymətləndirməsi ilə üst-üstə düşür və inzibati icraatda da tətbiq oluna bilər. S.F. Əliyev qanunvericilik bazasının təkmilləşdirilməsi, dövlət hakimiyyəti orqanları tərəfindən insan hüquqlarının realizəsi istiqamətində mexanizmlərin işlənib hazırlanması və məhkəmələrin işlərə baxması zamanı beynəlxalq normalara, xüsusilə AİHM presedentlərinə istinad edilməsini tövsiyə edir. Onun fikrincə, bu yanaşma insan hüquqları, beynəlxalq hüquq, konstitusiya hüququ, məhkəmələrdə işlərə baxılması praktikası və hüquqi yardım sahəsində geniş tətbiq oluna bilər [4].

**İnzibati icraatda müddətin başlanğıcı və bitməsi**

İnzibati işlərdə müddət adətən iddia ərizəsinin məhkəmədə qeydiyyata alındığı tarixdən başlayır. Lakin bəzi hallarda – məcburi ilkin inzibati müraciət tələb olunduqda – başlanğıc inzibati orqana müraciət tarixi qəbul edilir. Azərbaycan İnzibati Prosessual Məcəlləsinin 13-cü maddəsinə əsasən, inzibati orqana qarşı iddia qaldırmazdan əvvəl müvafiq orqana müraciət məcburidir. AİHM də bu yanaşmanı dəstəkləyir (Aydan Türkiyəyə qarşı, Köniq Almaniyaya qarşı işlər) [2].

İddia müddətləri də mühümdür: ümumiyyətlə 30 gün, bəzi kateqoriyalarda (elmi dərəcələr və s.) 2 ay. Bu qaydalar hüquqi müəyyənlik və prosessual intizam təmin edir.

AİHM işin ağlabatan müddətdə yekunlaşdırılıb-yekunlaşdırılmadığını qiymətləndirərkən bir neçə əsas meyarı rəhbər tutur. İlk növbədə işin mürəkkəblik dərəcəsi nəzərə alınır. Faktiki və hüquqi çətinliklər, çoxsaylı şahid və ya ekspert rəylərinin tələb olunması, beynəlxalq elementlərin iştirakı kimi hallar prosesi uzada bilər. Lakin mürəkkəblik təkbaşına gecikməni haqlı göstərmir – dövlət orqanları, xüsusilə inzibati qurumlar arasında koordinasiya və səmərəli əlaqə qurmaqla bu çətinlikləri minimuma endirməyə borcludur. Məsələn, Mansur Türkiyəyə qarşı işdə məhz belə koordinasiya çatışmazlığı mürəkkəblik kimi qəbul edilməmişdi.

İkinci vacib amil ərizəçinin (iddiaçının) öz prosessual davranışıdır. İnzibati icraatda “öz təşəbbüsü ilə araşdırma” prinsipi üstünlük təşkil etdiyindən, işin vaxtında aparılması əsasən məhkəmənin və dövlət orqanlarının vəzifəsidir. Ərizəçi qanuni hüquqlarından istifadə etdikdə, məsələn, əlavə sübut təqdim etmək, vəkil dəyişmək və ya məhkəməyə əsaslı etiraz vermək kimi, bu hərəkətlər adətən gecikməyə səbəb kimi ona qarşı qiymətləndirilmir.

Nəhayət, ən böyük çəki dövlət orqanlarının və məhkəmələrin hərəkətlərinə verilir. İnzibati orqanların sənədləri vaxtında göndərməməsi, ekspert rəyinin alınmasında yubanma, məhkəmə iclaslarının əsassız təxirə salınması və ya məhkəmə tərkibinin tez-tez dəyişdirilməsi kimi hallar birbaşa dövlətin məsuliyyət sahəsinə aid edilir. AİHM bu məsələdə çox qətidir: məhkəmələrin iş yükünün çoxluğu, heyət çatışmazlığı və ya infrastruktur problemləri üzrlü səbəb kimi qəbul edilmir. Tusa İtaliyaya qarşı işdə məhz bu prinsip vurğulanmışdı – dövlət öz sistemini elə qurmalıdır ki, Konvensiyanın tələblərinə cavab versin.

Bu üç meyar bir-biri ilə sıx bağlı şəkildə qiymətləndirilir və hər iş üzrə konkret hallar nəzərə alınır. Beləliklə, AİHM sadəcə müddətə baxmır, bütün prosesin məntiqi və ədalətli olub-olmamasına diqqət yetirir.

**Azərbaycanda vəziyyət və problemlər**

Ali Məhkəmənin 2023 təhlilinə görə (Ali Məhkəmənin 18.05.2023 tarixli təhlili), inzibati məhkəmələrdə iş yükü artıb və əsassız şikayətlər

prosesi ləngidir. Ümumilikdə, 2011–2022-ci illər ərzində bütün instansiyalar üzrə işlərin sayında artım müşahidə olunur. Xüsusilə birinci instansiya məhkəmələrində iş yükü daha sürətlə artmış və 2022-ci ildə ən yüksək həddə çatmışdır. 2020-ci ildə isə əvvəlki illə müqayisədə müəyyən azalma qeydə alınmış, sonrakı illərdə yenidən artım baş vermişdir.

Bəzi işlər illərlə davam edir və bu, hüquqların effektiv müdafiəsini çətinləşdirir. Konstitusiya Məhkəməsi fərdi şikayətlərdə AİHM meyarlarını tətbiq edir və uzun icraatları pozuntu kimi qiymətləndirə bilir. “Ağlabatan müddət” prinsipi sadəcə formal tələb deyil – bu, ədalətin vaxtında və effektiv reallaşmasının zəmanətidir. Azərbaycan hüquq sistemində bu prinsipin daha yaxşı tətbiqi üçün məhkəmə yükünün optimallaşdırılması, koordinasiyanın gücləndirilməsi və qabaqlayıcı mexanizmlərin (məsələn, Avstriya və İtaliya təcrübəsindəki kimi sürətləndirmə yolları) tətbiqi faydalı ola bilər. AİHM-in presedentləri göstərir ki, dövlət sistemini elə qurmalıdır ki, gecikmələr istisna olsun. Bu, həm hüquqların qorunması, həm də cəmiyyətin ədalətə inamı üçün vacibdir.

**Nəticə**

Aparılan təhlil göstərir ki, inzibati məhkəmə icraatında “ağlabatan müddət” prinsipi ədalətli məhkəmə hüququnun ayrılmaz tərkib hissəsi olmaqla, yalnız formal prosessual tələb deyil, hüquqların real və effektiv müdafiəsini təmin edən fundamental hüquqi zəmanətdir. Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ bu prinsipin məzmununu konkret müddətlə deyil, işin mürəkkəbliyi, ərizəçinin davranışı, dövlət orqanlarının fəaliyyəti və işin ərizəçi üçün əhəmiyyəti kimi meyarlar əsasında formalaşdırır. Bu yanaşma çevik olmaqla yanaşı, dövlətlər qarşısında yüksək təşkilati və institusional məsuliyyət qoyur.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsi və Konstitusiya Məhkəməsinin mövqeyi AİHM-in yanaşması ilə konseptual baxımdan uzlaşır. Lakin praktiki müstəvidə inzibati məhkəmələrdə iş yükünün artması, məhkəmə və inzibati orqanlar arasında koordinasiyanın yetərsizliyi, həmçinin prosedurların uzanması “ağlabatan müddət” prinsipinin tam reallaşmasına mane olur. Bu isə sübutların keyfiyyətinin azalmasına, müdafiə imkanlarının zəifləməsinə və cəmiyyətdə ədalət mühakiməsinə inamın sarsılmasına səbəb ola bilər.

AİHM presedentləri açıq şəkildə göstərir ki, gecikmələrə görə məsuliyyət əsasən dövlətin üzərinə düşür və məhkəmələrin iş yükü, kadr çatışmazlığı və ya institusional çətinliklər Konvensiya qarşısında üzrlü səbəb kimi qəbul edilmir. Bu baxımdan, inzibati məhkəmə icraatında “ağlabatan müddət” prinsipinin təmin edilməsi üçün məhkəmə yükünün optimallaşdırılması, icraatın erkən mərhələsində gecikmələrin qarşısını alan qabaqlayıcı mexanizmlərin tətbiqi, habelə Avstriya və İtaliya təcrübəsində olduğu kimi sürətləndirmə və kompensasiya mexanizmlərinin hüquqi sistemə inteqrasiyası məqsədəuyğun hesab edilməlidir.

Nəticə etibarilə, inzibati məhkəmə icraatında işlərə ağlabatan müddətdə baxılması yalnız fərdi hüquqların müdafiəsi baxımından deyil, həm də hüquqi dövlət prinsipinin və məhkəmə hakimiyyətinə ictimai etimadın qorunması baxımından həlledici əhəmiyyətə malikdir. Dövlətin məhkəmə sistemini bu prinsipə uyğun şəkildə qurması və funksional mexanizmlərlə təmin etməsi ədalətin vaxtında və effektiv şəkildə həyata keçirilməsinin əsas şərtidir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). [Elektron resurs]/URL: https://e-qanun.az/framework/897

2. Aydan Türkiyəyə qarşı işi. Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı, 12 mart 2013. [Elektron resurs]/URL: http://inhak.adalet.gov.tr/ara/karar/aydan.pdf

3. Başpınar, Ahmet. İdari yargıda makûl süre için öneriler. Danıştay Tasnif ve Yayın Bürosu Yayınları. No: 70. Danıştay ve İdari Yargı Günü (136. Yıl) Sempozyumu. Ankara. 2004. s. 21.

4. Əliyev, Sübhan Fərmayıl oğlu. İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin dövlədaxili təminat mexanizmləri: Avtoreferat. İxtisas: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları". Bakı. 2018.

5. Аширбекова М. Т., Кудин Ф. М. «Разумный срок» как оценочное понятие в уголовно-процессуальном праве // – Уголовное судопроизводство, – 2011. № 2, – с. 21–25.

6. Дикарев И. С., Гордеев П. С. Разумность процессуальных сроков – принцип уголовного судопроизводства // Вестник Волгоградского государственного университета. Серия 5: Юриспруденция. – 2012. № 1 (16). – с. 116.

7. Малофеев И. В. Разумный срок как принцип уголовного судопроизводства / диссертация на соискание степени доктора философии в области права. – Москва. 2014. – с. 46.

8. Поляков И. Н. Разумные сроки судопроизводства: понятие и значение // Российская юстиция. – 2011. № 4. – с. 33–37.

**Гаджиева Гюльсум Намиг гызы,**
магистрант II курса по специальности «Административное право,
административно-процессуальное право, финансово-экономическое право»
кафедры конституционного права юридического факультета
Бакинского государственного университета

**ПОНЯТИЕ «РАЗУМНОГО ВРЕМЕНИ» В АДМИНИСТРАТИВНОМ СУДЕБНОМ РАЗБИРАТЕЛЬСТВЕ: АНАЛИЗ ПРЕЦЕДЕНТОВ ЕКПЧ**

**РЕЗЮМЕ**

В данной статье рассматривается принцип «разумного срока» как одна из фундаментальных гарантий права на справедливое судебное разбирательство. Анализируется его правовая природа и определяются критерии, выработанные практикой Европейского суда по правам человека. Делается вывод о том, что оценка разумного срока зависит от конкретных обстоятельств дела. На основе проведённого исследования автор предлагает оптимизировать судебную нагрузку и внедрить превентивные механизмы для усиления реализации данного принципа в Азербайджане.

**Hajiyeva Gulsum Namig,**
Second-year master's student, "Administrative Law, Administrative
Procedural Law, Financial and Economic Law" specialty, Department
of Constitutional Law, Faculty of Law, Baku State University

**THE CONCEPT OF "REASONABLE TIME" IN ADMINISTRATIVE COURT PROCEEDINGS: ANALYSIS OF THE ECHR PRECEDENTS**

**SUMMARY**

This article examines the principle of a "reasonable time" as a fundamental guarantee of the right to a fair trial. The concept and its legal nature are analyzed, and the criteria developed in the case-law of the European Court of Human Rights are identified and substantiated. It is concluded that the assessment of a reasonable time depends on the specific circumstances of each case. Based on the research, the author proposes optimizing judicial workload and introducing preventive mechanisms to strengthen the effective implementation of this principle in Azerbaijan.

**Redaksiyaya daxilolma tarixi: 30.01.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 18.02.2026**
**Çapa qəbul olunma tarixi: 24.02.2026**